# (HƏDIS (7 10

<"xml encoding="UTF-8?>

(HƏDIS (7 10

Hədis 61: Həzrət Məhəmməd (s) buyurur: “Hər kəs çox yeməyə adət etsə, ürəyi qəsavət ”.(bağlayar (daşlaşar

* * *

Hədis 62: Həzrət Məhəmməd (s) buyurur: “Hər kəs özünü hansı dəstəyə oxşadarsa, həmin ”.dəstədəndir

* * *

Hədis 63: Həzrət Əli (ə) buyurur: “Sizin qiymətiniz yalnız behiştdir, özünüzü ondan ucuzuna ”.satmayın

* * *

Hədis 64: Həzrət Məhəmməd (s) buyurur: “Elm ilə birgə olan yuxu, cəhl ilə birgə olan ibadətdən ”.üstündür

* * *

Hədis 65: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala övladlarınız arasında, hətta onları ”.öpərkən belə ədalətə riayət etməyinizi sevir

* * *

”.Hədis 66: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala yalnız rəhimli bəndələrinə rəhm edər

* * *

Hədis 67: Həzrət Məhəmməd (s) buyurur: “Qadının bərəkətli olmasının əlaməti budur ki, elçiliyi

".asan, mehriyyəsi isə yüngül olsun

* * *

Hədis 68: Həzrət Məhəmməd (s) buyurur: "Bu dünyada sizin üçün bir müsafirin azuqəsi qədər ".olan mal kifayətdir

* * *

Hədis 69: Həzrət Məhəmməd (s) buyurur: "Allah-təala behişti nə dediyinə və onun haqqında nə ".deyildiyinə əhəmiyyət verməyən pis danışıqlı adamlara haram etmişdir

* * *

Hədis 70: Həzrət Məhəmməd (s) buyurur: "Sizin ən yaxşınız dünyaya daha rəğbətsiz, axirətə isə ".daha rəğbətli olanınızdır

* * *

Hədis 71: Həzrət Məhəmməd (s) buyurur: "Qardaşın (öz din) qardaşına olan gizli duası rədd ".ediləsi deyil